# Yubileyin mübarək!




*Hörmətli «Mədəni-maarif»!*

*Sənin 40 yaşını təbrik edirik!*

*Sözün əsl mənasında sənin əsas oxucuların olan mədəniyyət işçilərinin maarifləndirilməsi fəaliyyət devizin olmuşdur. Mədəniyyətin bütün sahələrini öz səhifələrində əks etdirərək mədəni həyatımızın güzgüsü olmusan. Qabaqcıl iş təcrübələrini bunlardan bəhrələnməyə səsləmisən.*

*Rayonumuzun mədəniyyət işçiləri sənin səhifələrindən boylanıb respublikanın mədəni mühitinə öz sözlərini demişlər.*

*Mədəni irsin qorunmasında az və ya çox dərəcədə əziyyəti, zəhməti olan mədəniyyət işçilərinin hamısı bizim üçün əzizdir. Bu sıradan respublikanın kitabxana işçilərinin zəhməti də əvəzedilməzdir.*

*Kitabxanalarımızın elə işçiləri var ki, 50 ildən artıqdır kitabxana işində fəaliyyət göstərirlər. Onlar öz təcrübələrini gənc kitabxanaçılara həvəslə öyrədirlər. Çox istərdik onların təcrübələri jurnalın səhifələrində daha çox işıqlandırılsın. Onlar haqqında yazılara geniş yer verilsin.*

*Yaşlı kitabxanaçılarımız bunu öz gərgin əməklərinə verilən mənəvi qiymət kimi qarşılayarlar.*

*Bir daha yubileyin mübarək!*

**Hörmətlə,**
**İsmayıllı rayon MKS-nin**
**kollektivi**